“AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI”

PUBLİK HÜQUQİ ŞƏXSİ

“TƏSDİQ EDİRƏM”

“Azərbaycan Dövlət Dəniz Akademiyası”

Publik Hüquqi Şəxsin

prorektoru_____ dos. V.B.Sadıqov

“___”_____2025-ci il

KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ

Trenajorda hazırlığın və qiymətləndirmənin aparılması

ADDA-TL-008

BAKI 2025

MÜNDƏRİCAT

Giriş.....3

1. **Tətbiq sahəsi.....3**
2. **Məsuliyyət……4**
3. **Daxıl olan məlumatlar.....4**
4. **MER 3D trenajorunda tapşırıqların verilməsi və qiymətləndirilməsi.....5**
5. **Resurslar.....6**

GİRİŞ

Bu təlimat "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi şəxsin Keyfiyyəti İdarəetmə Sisteminin sənədidir və İSO 9001:2015 Beynəlxalq Standartının 8.5-ci bəndi və "Qısamüddətli kursların keçirilməsi" ADDA-TL-002 proseduruna əsasən hazırlanmışdır.

1. TƏTBİQ SAHƏSİ

1.1 Bu təlimat tədris-qeydiyyat şöbəsi, fakültə dekanları, kafedra müdirləri, kafedraların tədris və yardımçı heyəti, əyani və təkrar ali təhsil alan tələbələr üçün nəzərdə tutulub.

1.2 Təlimatlar ixtisas və tədris fənni üzrə praktik məşğələlərin məqsəd və vəzifələrini, praktik məşğələlərin hazırlanması və keçirilməsinin metodik xüsusiyyətlərini müəyyən edir.

1.3 Bu sənədləşdirilmiş prosedurda istifadə olunan terminlər ISO 9000:2015 "Keyfiyyəti idarəetmə sistemi" Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

1.4 Bu sənəddə aşağıdakı simvol və abreviaturalardan istifadə olunur:

PM - praktik məşğələlər;

KİS - Keyfiyyəti İdarəetmə Sistemi;

"ADDA" PHŞ – "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi Şəxsi, Akademiya.

"AXDG" QSC - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

RKN – Rəhbərliyin keyfiyyət üzrə nümayəndəsi

Bu sənəddə aşağıdakı normativ istinadlardan istifadə olunur:

ISO 9000:2015 BS: "Keyfiyyəit İdarəetmə Sistemi. Əsaslar və lüğət"

ISO 9001:2015 BS: "Keyfiyyəti İdarəetmə Sistemi. Tələblər"

ADDA-ƏP- 002: "Təhsil prosesinin təmin edilməsi və aparılması"

2. MƏSULİYYƏT

2.1 Akademiyanın rektoru bu təlimatı təsdiq edir və ona dəyişikliklər edir, bu sənədin tələblərinin yerinə yetirilməsi üçün zəruri vəsait ayırır.

2.2 Akademiyanın prorektoru işin bu təlimata uyğun təşkilinə cavabdehdir.

2.3 Prosesdə iştirak edən fakültə dekanı və kafedra müdirləri bu KİS sənədində müəyyən edilmiş tələblərin yerinə yetirilməsinə cavabdehdirlər.

2.4 Bu təlimatın tələblərinə uyğunluğun yoxlanılması illik KİS planına uyğun olaraq daxili audit tərəfindən həyata keçirilir.

3. DAXIL OLAN MƏLUMATLAR

3.1. Trenajorlar 050605 “Dəniz naviqasiyası mühəndisliyi”, 050609 “Gəmi energetik qurğuları və onların istismarı mühəndisliyi” və 050607 “Elektrik mühəndisliyi” ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutlumuşdur. Trenajor “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair” (STCW) əlavələr edilmiş Beynəlxalq Konvensiyanın həmçinin “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair” Məcəllənin A-1/12 və B-1/12 bölmələrinə, ƏİBM 6-cı və 8-ci bölmələrinin tələblərinə əsasən tərtib olunmuşdur.

3.2. Trenajorda dərslərin keçirilməsi Beynəlxalq Dəniz Təşkilatının (BDT) 7.01 (Master and Chief Mate), 7.03 (Officer in Charge of a Navigation Watch), 7.02 (Chief Engineer Officer And Second Engineer), 7.04 (Officer In Charge Of An Engineering Watch) və 7.08 (Electro-technical Officer) Model Kursunun tələbinə əsasən aparılır.

3.3. Trenajorda DHDNÇ (STCW) konvensiyasının tələbinə əsasən BDT-nin 6.09, 6.10 və 3.12 model kusrlarına əsasən “Təlimatçılar üzrə hazırlıq”, “Dənizçilərin bilik və bacarığının yoxlanmasına və qiymətləndirilməsinə dair hazırlıq” və “Trenajor təlimatçılarının və qiymətləndiricilərinin hazırlığı” xüsusi hazırlıq kusrlarını bitirmiş müəllimlərə (təlimatçılara) tədris aparmağa icazə verilir.

4.4 050609 “Gəmi energetik qurğuları və onların istismarı mühəndisliyi” ixtisası üçün MER-3D trenajorunda məşğələ dərsləri “Gəmi energetik qurğularında

növbəçəkmə” və “Gəmi maşın və mexanizmlərinin avtomatik idarə edilməsi (AİE)” fənləri üçün nəzərdə tutulmuşdur.

4. MER-3D TRENAJORUNDA TAPŞIRIQLARIN VERİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ PROSEDURU

MER-3D trenajorunda məşğələ dərslərinin aparılması və verilən tapşırıqların qiymətləndirilməsi aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

1. Müəllim qrup jurnalında tələbələrin dərsə davamiyyətini yoxlayır: dərsdə olmayan tələbələrə *q/b* yazılır, dərsdə iştirak edən tələbələrdə isə müvafiq xanalar boş saxlanılır və dərsin sonunda tapşırq soruşulmayan tələbələrin qarşısında *i/e*, tapşırılara cavab verən tələbələrə isə onların aldıqları qiymətlər yazılır (hər bir tələbənin 1 ayda ən azı 3 qiyməti olmalıdır);
2. Cari məşğələ dərsinin mövzusu (bu mövzu tələbələrə bundan əvvəlki dərsdə elan edilir) jurnala qeyd edilir;
3. Müəllim dərsin mövzusunu yada saldıqdan sonra cavab verməli olan tələbəni trenajorun monitoru qarşısına dəvət edərək tapşırığı ona təqdim edir;
4. Tələbə 1-2 dəqiqə tapşırıqla tanış olduqdan sonra tapşırıq-qiymətləndirmə vərəqində olan ardıcıllıqla tapşırığın suallarını izah edərək onları icra edir;
5. Tələbə cavab verdikdən sonra müəllim qiymətləndirmə vərəqində sualların cavablarına verilən qiymətləri tələbəyə elan edərək nə üçün həmin qiymətin verildiyini ona izah edir;
6. “Gəmi energetik qurğularında növbəçəkmə” və “Gəmi maşın və mexanizmlərinin avtomatik idarə edilməsi (AİE)” fənləri üçün mühazirə və məşğələ dərsləri nəzərdə tutulduğundan bu fənlər üçün imtahanqabağı 50 bal aşağıdakı kimi paylanır:

- Məşğələ (trenajor) – 20 bal;
- Sərbəst iş – 10 bal.
- Kollokvium – 10 bal;
- Dərsə davamiyyət – 10 bal;

7. Qiymətləndirmə vərəqində (ADDA-F-058, ADDA-F-059, ADDA-F-005) sualların düzgün cavablandırılmasına, eləcə də dəqiq icra olunmasına görə verilən ən böyük qiymətlər çətinlik dərəcələrindən asılı olaraq aşağıdakı kimidir:

   1,0 bal – asan sual;

   2,0 ÷ 3,0 bal – orta çətin sual;

   4,0 bal – çətin sual.

8. Tələbə tapşırıqda verilən sualların hamısını düzgün cavablandırıb dəqiq icra edərsə o, hər tapşırığa görə maksimum 20 (iyirmi) bal toplaya bilər;

9. Tələbə tapşırığı yerinə yetirərkən müəyyən səhvlərə yol verərsə, və yaxud, müəyyən mərhələdə tapşırığın icrasını dayandırarsa, onda onun topladığı ballar 0-dan 20-yə qədər ola bilər və tələbənin topladığı bu ballar aşağıdakı kimi qiymətləndirilir:

   A – (əla) – (19,0 ÷ 20);

   B – (çox yaxşı) – (17,0 ÷ 18,0);

   C – (yaxşı) – (15,0 ÷ 16,0);

   D – (kafi) – (13,0 ÷ 14,0);

   E – qənaətbəxş – (11,0 ÷ 12,0);

   F – qeyri kafi – (10,0 və bundan aşağı).

10. Dərsin sonuna 15 dəqiqə qalmış müəllim növbəti məşğələ dərsinin tapşırığını elan edir, qiymətləndirmə vərəqindəki ardıcıllıqla sualları izah edərək trenajorun monitorunda onların icra edilməsini başa salır və suallara cavab verir.

5. RESURSLAR

Bu sənədləşdirilmiş prosedurun tələblərini yerinə yetirmək üçün Akademiyanın rektoru aşağıdakı zəruri resursları ayırır:

- normativ sənədlər;
- ixtisaslı kadrlar
- binalar, avadanlıqlar, materiallar;
- maddi resurslar.